# Daşlara və rənglərə hopmuş ömür

**Yenicə çəkdiyi eskizi bir qədər aralı tutub qaşlarını çatdı. Gözlərini azca qıyıb diqqət kəsildi. "Hə, deyəsən, bu dəfə alındı", düşündü. Yorğun-yorğun ayağa qalxıb yaxınlıqdakı radionun düyməsini basdı. "Qaya" ansamblının ecazkar musiqisi otağa yayıldı.**



### *Ey həyat, sən nə qəribəsən!..*

Jurnal masasının üstündəki çoxsaylı məktub və teleqramları götürüb nəzərdən keçirdi. Rusiya Rəssamlar Akademiyasının prezidenti, görkəmli heykəltəraş Zurab Seretelinin təbrik teleqramını dönə-dönə oxudu   Xəyal onu uzaqlara apardı

Gəncə şəhərinin baş rəssamı, 70 yaşını qeyd edən istedadlı heykəltəraş, respublikanın əməkdar rəssamı Şərif Şərifovu bu gün nəinki ölkəmizdə, eləcə də onun hüdudlarından çox-çox uzaqlarda belə yaxşı tanıyırlar. 1945-ci ildə Gəncədə anadan olan bu tanınmış fırça və tişə ustasını valideynləri həkim və ya hüquqşünas görmək istəyirdilər. Lakin yeniyetmə Şərif şəkil çəkməyi, plastilindən müxtəlif fiqurlar düzəltməyi daha çox sevirdi. Elə bu arzu və istəklə sənət yolunda ilk addımlarını şəhər uşaq rəssamlıq məktəbində atdı. Buradan başlanan yol onu Bakıya - Ə.Əzimzadə adına Dövlət Rəssamlıq məktəbinə, sonra isə Moskvaya, S.Straqonov adına ali sənaye-rəssamlıq məktəbinə apardı. Moskva təhsili Şərif Şərifovun sənət yolunda böyük rol oynamış, görkəmli sənət adamlarından monumental dekorativ heykəltəraşlığın sirlərini səylə öyrənmiş, bilik və bacarığını təkmilləşdirmişdir.

1971-ci ildə doğma şəhərə ali təhsilli fırça və tişə ustası kimi dönən Ş.Şərifov Azərbaycan Rəssamlar İttifaqının Gəncə filialında əmək fəaliyyətinə başlamışdır. Pedaqoji texnikumda gələcək rəssamlara dərs deyib, öz təcrübəsini gənclərə öyrətmişdi. Yaxşı xatırlayır, bir dəfə o, tələbələrinin yaradıcılıq prosesində təsir məsələsiylə əlaqədar ehtiraslı mübahisəsinə yekun vuraraq demişdir ki, sənətkarın formalaşmasında müxtəlif faktorlar təsir göstərə bilər. Lakin ən başlıcası budur ki, hər bir sənətkarda sənətkarlığı məhz elə həmin sənətkarın özü yaradır. Ş.Şərifov bu kəlamın doğruluğuna çox tezliklə inanmışdı. O, müxtəlif üslubları, ayrı-ayrı sənətkarların yaradıcılığını çox götür-qoy etmişdi. Dövlətçilik mövzusu, bədii-estetik və portret janrı onu daha çox cəlb etmişdi. Xüsusilə Nizami Gəncəvi yaradıcılığına sədaqət indinin özünə qədər davam edir. İstər süjetli kompozisiyalı əsərləri, istərsə də lirik səpkili əsərləri diqqəti cəlb edir, tamaşaçı rəğbəti qazanır. Nizami Gəncəvi yaradıcılığı Şərif Şərifovun sənət yolundan qırmızı xətlə keçir. Nizami Gəncəvi məqbərəsində, Nizami muzeyində hazırladığı əsərlər, "Yeddi gözəl" kompozisiyası, şəhərin mərkəzində "Xəmsə" kompozisiyası bu baxımdan maraqlıdır.




1972-ci ildə SSRİ Rəssamlar İttifaqına üzv olan Ş.Şərifov 1978-ci ildə gənc heykəltəraşların müsabiqəsində "Kənd dülgəri" əsərinə görə SSRİ Rəssamlar Akademiyasının diplom və mükafatına layiq görülüb. İki il sonra SSRİ Rəssamlar Akademiyası, SSRİ Mədəniyyət Nazirliyi və İttifaq Rəssamları və Ümumittifaq gənclər təşkilatının Lenin komsomolu mükafatı laureatı oldu. O dövrdə bu, çox yüksək dəyər idi.

Bu dəyər və mükafatlar onlarcadır. "Xəmsə" bulağı kompleksi, N.Nərimanovun və M.Ş.Vazehin abidəsi, "Şir və Günəş", "Həyat ağacı" monumental əsəri böyük yaradıcılıq axtarışlarının bəhrəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin əzəmətli abidəsi Gəncə şəhərinin mərkəzi meydanını bəzəyir. Heykəltəraş bu monumental abidədə ulu öndərin xarakterik obrazını böyük ustalıqla yaratmışdır. Qardaş Türkiyənin Qars şəhərində və Gəncədə Heydər Əliyev adına parklarda istedadlı tişə ustasının maraqlı sənət əsərləri ucaldılmışdır. Onun əsərləri Azərbaycanın ayrı-ayrı bölgələrində, Rusiyanın və bir çox ölkələrin muzeylərində saxlanılır. Heykəltəraş hər bir əsərində Azərbaycan memarlıq və heykəltəraşlıq ənənələrinə sadiq qalmış, heç kəsi təkrarlamamağa çalışmışdır. Şərifin təbirincə desək, büst və ya heykələ daş fiqur kimi baxmaq düzgün deyil, onlar fərdilikdən çıxıb mürəkkəb psixoloji xarakteri özündə ümumiləşdirən, yüksək ideyaları cəmləşdirən sənət əsərləridir. Fiqurlar yonulduqca, daşlar lazımi forma aldıqca xarakter də cilalanır, fərdi üslub da!..



Heykəl yonmaq zərgərliyin böyüdülmüş formasıdır. Təsadüfi deyildir ki, belə bir ifadə var: "Hansı daşdan qaş çıxar, hansından baş!". Bəli, sərraf zərgər üzük qaşı üçün material seçə bildiyi kimi, heykəl ustası da öz işi üçün daşı ayırd edə bilir. Şərif də yaratdığı hər bir əsərində materialı böyük ustalıqla seçir və öz iradəsinə və yaradıcılıq təfəkkürünə tabe etməyi bacarır.

Ş.Şərifovun yaradıcılığı çoxsaxəlidir. İstər fırça ustası, istərsə də tişə ustası kimi yaratdığı sənət əsərləri yaddaqalan, baxımlıdır. Xeyli vaxtdır o, xalçaçılıq sənətinin sirlərini də ustalıqla öyrənir və istifadə edir. Onun eskizləri əsasında hazırlanan portret xalçaları dünyanı gəzir. Dahi şəxsiyyətlər, təbiət mənzərələri onun hazırladığı xalçalarda öz əksini tapır. ABŞ-ın sabiq prezidenti B.Klintonun qızının portret-xalçası unudulmaz ümummilli liderimiz Heydər Əliyev tərəfindən 2001-ci ildə B.Klintona hədiyyə edildi. Beynəlxalq Olimpiya Komitəsinin mərhum prezidenti X.A.Samarancın xalça-portreti hazırda Lozanna şəhər muzeyində saxlanılır. Ş.Şərifovun eskizi əsasında toxunan xalçalar həmişə uğurlu alınmışdır.

Artıq Ş.Şərifov 20 ilə yaxındır şəhərin baş rəssamı, İcra Hakimiyyətinin şəhər tərtibatı, reklam və dizayn şöbəsinin müdiridir. Şəhərimizin daha gözəl və daha cəlbedici olması üçün daim axtarışlar aparır. Şəhərin mədəni həyatındakı xidmətlərinə görə əməkdar rəssam fəxri adına layiq görülüb. 2012-ci ildə o, Rusiya Rəssamlar Akademiyasının fəxri üzvü seçilib. O, həmişə öz-dəsti xətti ilə sayılıb seçilən sənətkardır.

**Bu günlər Ş.Şərifovun 70 illik yubileyi ilə əlaqədar ünvanına gələn telefon zəngləri, təbrik teleqramlarının ardı-arası kəsilmir  Onun öz həyatı, keçdiyi yaradıcılıq yolu haqqındakı söhbətləri şirin bir nağıla bənzəyir. Heykəltəraşlıq əsərləri, xalça portretləri, fırça nümunələri kimi!.. Onun sənəti yüksək sənətkarlığı və orijinallığı ilə ürəklərdə özünə həmişəlik yer tapmışdır. Ona görə ki, 70 illik ömrünün çox hissəsini sərf etdiyi sənəti belə gücə malikdir**

**Füzuli RÜZİGAR**